*“Azərbaycan hazırda Vətən müharibəsi aparır. Bu müharibədə uğurlu hərbi əməliyyatlarla yanaşı, diplomatik, siyasi və informasiya cəbhəsində də nailiyyətlər qazana bilirik. Bütün bunlar Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi təcrübəsi və iradəsi sayəsində reallaşır. Son günlər isə Prezident İlham Əliyev informasiya cəbhəsində də ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edir, bu cəbhədə də yeni tarix yazır”. “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu mediaya açıqlamasının davamında bildirib:*

# Prezident İlham Əliyev Azərbaycan diplomatiyasına misilsiz uğurlar qazandırır

– Nəzərə almaq lazımdır ki, müasir mərhələdə müharibələr hibrid müharibələr kimi xarakterizə edilir. Azərbaycan Ordusu ön cəbhədə savaşaraq qələbələr qazanır, xarici siyasətimiz diplomatik cəbhədə uğurlarını sıralayır. Biz bu gün informasiya cəbhəsində də paralel olaraq uğurlu müharibə aparırıq. Sadalananların hər birində qiymətli və tarixi qələbələr əldə edirik. İlk baxışda hibrid müharibələr fərqli platforma, və seqmentlərdə aparılsa da, bütün bunların hamısının bir qəhrəmanı var ki, o da milli gücün zəkası olan, mükəmməl diplomatiyamızı formalaşdıran, xarici siyasət strategiyamıza uğur qazandıran Prezident İlham Əliyevdir.

Sentyabr ayının 27-dən bu günə qədər Azərbaycan Prezidenti Ali Baş Komandan olaraq müzəffər ordumuzun hərbi-strateji əməliyyatlarına məharətlə rəhbərlik etdiyi kimi, diplomatiya, informasiya və siyasi fəaliyyət yönlərində də tarixi nailiyyətlərimizə imza atıb. Döyüş meydanında uğurlarımız o qədər böyükdür ki, Azərbaycan özünün son 2 əsrlik tarixində heç vaxt hərbi sahədə belə böyük qələbələrə imza atmayıb. Ona görə də mahiyyət və məzmunca bu savaş bizim düşmən işğalından qurtuluş müharibəmizdir.

Buna paralel olaraq 27 sentyabrdan bu günədək Azərbaycan Prezidenti İlham Əliyev dünyanın təsir dairəsi və miqyas etibarilə ən böyük, aparıcı informasiya resurslarına, televiziya kanallarına müsahibələr verib. “Əl-Ərəbiyyə”dən başlamış “Əl-Cəzirə”, CNN, “Rossiya 1”, RBK, “Haber Global”a qədər çoxsaylı telekanallara verilən bu müsahibələrdə dövlət başçımız Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırıb. Bu müsahibələrin hər biri diplomatiya tarixinə yazılacaq tarixi açıqlamalardır. Ayrı-ayrılıqda isə onların hər biri məzmun tutumuna, həqiqətləri ifadə etmə çevrəsinə görə müstəsna dərəcədə önəmlidir.

Redaktor deputat açıqlamasında daha sonra həmin müsahibələrdə önə çəkilən bir məsələyə ayrıca aydınlıq gətirib:

– Prezident İlham Əliyevin xarici telekanallara verdiyi müsahibələrdə istifadə etdiyi diplomatik dil, üslub, metod və ümumi məzmun son dərəcə aydın, səlis və mükəmməldir. Bunların hər biri ayrılıqda qlobal ictimai rəyi bizim lehimizə dəyişmək üçün xüsusi seçilmiş və çox təsirli amillərdir. Bundan əvvəl, bu ilin 12–16 iyulunda Ermənistanın Tovuz təxribatından sonra Prezidentin bəyanat, çıxış və müsahibələrində çox önəmli strateji mesajlar gördük. Cənab İlham Əliyevin həmin açıqlamalarında daxili auditoriya, bütün dünyaya, beynəlxalq təşkilatlara çox mühüm mesajların verildiyinin şahidi oldu. Bu tarixi çıxışlar çağdaş diplomatiya və ən yeni siyasi tariximizin qlobal informasiya məkanında əldə etdiyi çox gərəkli siyasi qələbələr idi.

Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş katibi ilə bir neçə dəfə danışdı və Azərbaycanın haqlı mövqeyini izah edərək ölkəmizin, Cənubi Qafqazın təhlükəsizliyini təhdid edən hadisələrlə bağlı işğalçı Ermənistanın atacağı addımları öncədən dünya liderinin diqqətinə çatdırdı. Baş katiblə danışıqdan bir gün sonra Avropa İttifaqının Cənubi Qafqaz üzrə səfirini qəbul edərkən də Azərbaycan rəhbəri bir daha regionu nələrin gözlədiyini, rəsmi İrəvanın bölgəni müharibəyə sürüklədiyini söylədi. Dövlət başçımız baş verə biləcək hadisələrin Cənubi Qafqazın və Avropanın enerji təhlükəsizliyini təmin edən koridoru da təhdid edəcəyi ilə bağlı fikirlər səsləndirdi.



Bütün bunlar onu göstərir ki, istər ön cəbhədəki qurtuluş savaşımızda, istərsə də diplomatiyada, siyasi müstəvidə əldə etdiyimiz qələbələrin yalnız bir memarı var, o da Prezident İlham Əliyevdir. Elə beynəlxalq müstəvidə bu günə qədər ölkəmizin hər hansı bir dövlət, yaxud beynəlxaq təşkilat tərəfindən qınana bilməməsi də məhz ölkə rəhbərinin apardığı səmərəli danışıqlarda, etdiyi çıxışlarda, verdiyi müsahibələrdə ortaya qoyduğu fakt və sübutların, gerçək mülahizələrin inandırıcılığı ilə bağlıdır. Prtezident İlham Əliyev bu informativ və diplomatik hazırlığı gerçəkləşdirməklə qlobal məkanda ümumi ictimai rəyi bizim lehimizə təmin etdi.

Hikmət Babaoğlu sonda bildirib: “ Bütün bu çıxışlar, müsahibələr və ümumilikdə baş tutan uğurlu gedişlər Azərbaycanın diplomatiya tarixində qazanılmış ən böyük uğurlar kimi yer alır. Əminliklə söyləyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq diplomatiya və qlobal informasiya məkanında əldə etdiyi bu uğurlar Dağlıq Qarabağın Azərbaycana qaytarılmasını təmin etmək üçün elə zəruri və möhkəm hərbi-siyasi zəmin yaradıb ki, bununla ərazi bütövlüyümüzün bərpası qarşısıalınmaz bir proses kimi qələbə ilə başa çatacaq”.

***Hazırladı:***
***R.TAHİR, “Xalq qəzeti”***